# AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN

# TƏDQİQAT AZADLIĞI SİYASƏTİ

| **Sənədi tərtib edən şöbə** | **Redaksiya** | **Qeydiyyat nömrəsi** | **Qüvvəyə minmə tarix** | **Növbəti tam baxış** |
|---|---|---|---|---|
| İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsi | 1-ci | H/22-19052025TA/S | 19.05.2025-cu il | 18.05.2028-cı il |
| **Siyasətin Bəyannaməsi** | | | | |
| **Məqsəd** | Tədqiqat mühitinin yaradılmasıdır:<br>• innovativ və faydalı tədqiqatları təşviq etmək,<br>• etik və məsuliyyətli tədqiqat təcrübəsini təşviq etmək<br>• Azərbaycan Tibb Universitetinin (ATU-nun) müvafiq qaydaları və siyasətlərinə uyğunluğu təmin etmək. | | | |
| **Fəaliyyət dairəsi** | Bu siyasət aşağıdakılara aiddir:<br>• kadrlar, o cümlədən akademik, peşəkar, texniki və inzibati heyət;<br>• təhsilalanlar;<br>• əlaqəli şəxslər, tərəfdaşlar və dəvət olunan şəxslər, məsləhətçilər;<br>• ATU-da elmi fəaliyyətlə məşğul olan şəxslər, o cümlədən universitetin Elmi Araşdırmalar Mərkəzi və klinikaları ilə əlaqəli şəxslər. | | | |

## Mündəricat:

Missiya ........................................................................................................ 3
Gələcəyə baxış ........................................................................................... 3
Ön söz ........................................................................................................ 3
Siyasətin hüquqi əsasları ........................................................................... 3
Əsas prinsiplər ........................................................................................... 4
Tətbiqi ........................................................................................................ 4
Xülasə........................................................................................................ 5

**Missiya**

Bu siyasətin missiyası ATU-da tədqiqatçıların - həm əməkdaşların, həm də təhsilalanların müstəqilliyini dəstəkləyən dinamik və etik tədqiqat mühiti yaratmaqdır. İnnovativ, etik və məsuliyyətli tədqiqat təcrübələrini təşviq etməklə, bu siyasət tədqiqatçıların tədqiqat fəaliyyəti ilə məşqul olması, kəşflər edə və elmi biliklərin, tibbi təhsilin və ictimai rifahın inkişafına töhfə verə biləcəyi bir mühit yaratmağı hədəfləyir. Bu missiya akademik azadlıq, dürüstlük və etik davranış dəyərlərinə əsaslanır və bütün tədqiqat fəaliyyətlərinin universitetin mükəmməlliyə və cəmiyyətə müsbət təsirə olan öhdəliyinə uyğunluğunu təmin edir.

**Gələcəyə baxış**

Gələcəyə baxışımız, vəzifəsindən və səlahiyyətindən asılı olmayaraq, hər bir tətqiqatçının sağlamlıq və tibb sahəsində qlobal çağırışlara cavab verən əsaslı tədqiqat aparmaq üçün azadlıq və dəstək təmin edən qabaqcıl tətqiqat qurumu olmaqdır. Akademik azadlıq, məsuliyyət və əməkdaşlıq mədəniyyətini təşviq etməklə ATU elmə, səhiyyəyə və bütövlükdə cəmiyyətə böyük töhfələr verə biləcək gələcəyin elmi liderləri yetişdirən innovasiya mərkəzi olmağa çalışacaq.

**Ön söz**

Bu, siyasət ATU-nun tədqiqat fəaliyyəti ilə məşğul olan əməkdaşlarının və təhsilalanlarının tədqiqat müstəqilliyini dəstəklənmək prinsiplərini təsvir edir. ATU, tədqiqat fəaliyyətinin azadlığına əsaslanan tədqiqat sahəsində mükəmməl təcrübə qazanmağa çalışır. Tədqiqat azadlığı tədqiqatçılara etik və normativ tələblərə riayət etməklə öz tədqiqat maraqlarını həyata keçirməyə, tədqiqat sorğularını formalaşdırmağa, tədqiqat işini hazırlamağa və aparmağa, və nəticələri sərbəst şəkildə paylaşmağa imkan verir.

Bu siyasət universitetin asağıdakı öhdəliklərini təmin edir:

• yüksək keyfiyyətli tədqiqatların aparılması;
• yeni nəsil elmi liderlərin formalaşdırılması;
• cəmiyyətə müsbət təsir göstərilməsi.

**Siyasətin hüquqi əsasları:**
Azərbaycan Respublikası Konstitusiyası (12 noyabr 1995-ci il № 00.);
“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu (19.06 2009-cu il 833-IIIQ);
“Elm haqqında” Azərbaycan Respublikasının Qanunu (14 iyun 2016-cı il№ 271-VQ);
“Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu (22 may 2012-ci il № 365-IVQ);
"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanunu (5 iyun 1996-cı il, 115-İQ).

**Əsas prinsiplər**

• **Akademik azadlıq:** ATU tədqiqatçıları, universitetin missiyası və dəyərlərinə uyğun olması şərti ilə, tədqiqatlarını əsassız təsir və ya senzura olmadan öz tədqiqat maraqlarını həyata keçirmək hüququna malikdir.
• **Etik yanaşma**: tədqiqatçılar “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda (24 aprel 2020-ci il, № 57-VIQD) müəyyən edilmiş prinsiplərə riayət etməklə tədqiqat fəaliyyətini məsuliyyətli və şəffaf formada həyata keçirməlidilər. Onlar insan üzərində hansısa araşdırma aparmazdan öncə mütləq etik təsdiqləri almalı və müvafiq təlimat və qaydalara əməl etməlidirlər.
• **Tədqiqat şəffaflığı**: tədqiqatçılar tədqiqat şəffaflığın ən yüksək standartlarını qorumaq üçün məsuliyyət daşıyırlar. Bu tədqiqat nəticələrinin dəqiqliyini, etibarlılığını və təkrar istifadəsini əhatə edir. Onlar başqalarının töhfələrini tanımalı, plagiatdan qaçmalı və maraqların toqquşmasını şəffaf şəkildə həll etməlidirlər.
• **Məlumatların idarə edilməsi:** tədqiqatçılar öz tədqiqat məlumatlarını və materiallarını məsuliyyətlə və etik şəkildə idarə etməlidirlər. Onlar məlumatların təhlükəsizliyini, istifadəsini, düzgün saxlanmasını və məhv edilməsini təmin edən ATU etik komitəsinin qaydalarına əməl etməlidirlər.
• **Əqli mülkiyyət**: tədqiqatçılar "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa (22 may 2012-ci il tarixli, 365-IVQ saylı) və "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa (5 iyun 1996-cı il, 115-İQ) riayət etməlidirlər. Bura tədqiqat yolu ilə formalaşan əqli mülkiyyətin istifadəsi, idarə edilməsi, qorunması və kommersiyalaşdırılması üçün müvafiq prosedurlara riayət edilməsi daxildir.
• **Əməkdaşlıq və mentorluq**: Universitet tədqiqatın müstəqilliyini dəstəkləmək üçün əməkdaşlığı və mentorluğu təşviq edir. Təcrübəli tədqiqatçılar gənc tədqiqatçılara rəhbərlik etməli və məsuliyyətli tədqiqat təcrübələri üçün tövsiyələr verməlidirlər.

**Tətbiqi**

- **Təlim və təhsil:** Tədqiqat prinsiplərini başa düşmək və onlara əməl etmək məqsədi ilə ATU tədqiqatçılar üçün təlim və resurslar təqdim edir. Bura məsuliyyətli tədqiqat, məlumatların idarə edilməsi, əqli mülkiyyət və maraqların toqquşması üzrə təlimlər daxildir.
- **Mentorluq proqramları**: ATU, gənc tədqiqatçıları tədqiqat müstəqilliyinin inkişafında rəhbərlik və dəstək verə biləcək təcrübəli tədqiqatçılarla əlaqələndirən mentorluq proqramlarını dəstəkləyir.
- **Resurslar və infrastruktur**: ATU tədqiqatçılara maliyyə dəstəyi, laboratoriya avadanlığı və texniki dəstək daxil olmaqla tədqiqat fəaliyyətlərini dəstəkləmək üçün zəruri mənbələr və infrastrukturdan istifadə üçün imkan yaradır.

- **Monitorinq və baxış:** ATU bu siyasətə riayət olunmasına nəzarət edir və onun azad tədqiqat fəaliyyəti təşviqində effektivliyini mütəmadi olaraq yoxlayır.

**Xülasə**

ATU tədqiqat azadlığını qiymətləndirən və dəstəkləyən bir mühiti yaratmaqla tədqiqatçılara yeni kəşflər etmək, elmin inkişafına töhfə vermək, insan sağlamlığını və tibbi təhsili yaxşılaşdırmaq üçün imkanlar yaratmaq niyyətindədir. Bu siyasət tədqiqatçılara ən yüksək etik və peşəkar standartlara riayət edərək müstəqil tədqiqatlarda çətinliklərin öhdəsindən gəlmək üçün əsas yaradır.